*Nərmin XANMƏMMƏDOVA* *

# RUSİYA İMPERİYASININ QAÇQINLARA DAİR SİYASƏTİNİN REGİONAL XARAKTERİSTİKASI: 1914-1917-ci illər

**Açar sözlər:** Rusiya imperiyası, Qafqaz, Birinci dünya müharibəsi, qaçqınlara dair siyasət, Tatyana komitəsi, Ümumrusiya zemstvo və şəhər ittifaqı, 1915-ci il 30 avqust qanunu, Baş Qafqaz Komitəsi.

**Keywords:** Russian Empire, Caucasus, First World War, refugee policy,Tatiana Committee, All-Russian Zemstvo and City Union, Act of August 30, 1915, Main Caucasian Committee.

**Ключевые слова:** Российская империя, Кавказ, Первая мировая война, политика по беженцам, Татьянинский комитет, Всероссийский земский и городской союз, Закон от 30 августа 1915 г., Главный Кавказский Комитет.

İmperialist dövlətləri arasındakı ziddiyyətlər və bunun nəticəsində yaranmış hərbi-siyasi bloklaşma (Üçlər ittifaqı və Antanta) 1914-cü ildə Dünya müharibəsinə çevrildi. Müharibənin başlıca hərbi əməliyyatları Qərb və Şərq cəbhəsində cərəyan edirdi. Bununla eyni zamanda, Qafqaz cəbhəsi, Balkan cəbhəsi və s. cəbhələrdə də döyüşlər gedirdi [18; 20; 22; 24; 25; 8].

I Dünya müharibəsinin başlanması ilə mülki əhalinin hərbi əməliyyat ərazisindən məcburi miqrasiyası meydana gəldi. Müharibənin əsas aktorlarından olan Rusiya imperiyasında ilk qaçqınlar Qərb cəbhəsinin əhatə etdiyi ərazilərdə yaransa da, sonra Qafqaz cəbhəsi və İran kampaniyasının [33; 5] əhatə etdiyi bölgələrdə də özünü göstərdi. Rusiya imperiyasında qaçqınların sayı haqqında dəqiq statistik material olmadığından, bu barədə müxtəlif hesablamalara görə rəqəmlərin 5-10 milyon intervalında dəyişdiyi aydın olur [13,100-101]. Rusiyanın işğal etdiyi türk və digər müsəlman ərazilərindən 850 min nəfərdən çox müsəlman qaçqına çevrilmişdi [7, s.224].

Qaçqınlığın ilk dövrlərdən böyük humanitar fəlakətlə müşayət edilməsinə baxmayaraq, bu sahədə müxtəlif dövlətlərin, o cümlədən Rusiya imperiyasının siyasi xəttinin formalaşması mürəkkəb yol keçdi. Bu siyasətin ən mühüm problemlərindən biri də, onun milli ucqarlarda, xüsusilə Qafqazda həyata keçirilməsinin xüsusiyyətləri ilə bağlı idi. Bu baxımdan Rusiyanın qaçqınlara dair siyasətinin regional xarakteristikası mühüm elmi vəzifə kimi qarşıya çıxır.

* **Nərmin Xanməmmədova** - AMEA Tarix İnstitutunun "Azərbaycanın tarixi demoqrafiyası" şöbəsinin elmi işçisi

Çar hökuməti qaçqınlara kömək işini ilk olaraq ictimai təşkilatlar vasitəsilə həyata keçirirdi. Rusiya imperiyasında ilk belə təşkilatlardan biri 1914-cü il 8-9 avqustda təşkil edilmiş Xəstə və yaralı döyüşçülərə kömək Ümumrusiya şəhərlər ittifaqı və 11 avqustda yaradılan və böyük knyaginya Yelizaveta Fyodrovnanın (1864-1918) himayəsində olan Xəstə və yaralı döyüşçülərə kömək Ümumrusiya zemstvo ittifaqı olmuşdu. Bundan başqa xeyriyyə təşkilatları da bu işə cəlb edilmişdi.

İmperiya səviyyəsində qaçqınlara və müharibədən zərər çəkmişlərə yardım etmək üçün, 1914-cü il sentyabrın 14-də Böyük knyaginya, çar II Nikolayın (1894-1917) ikinci qızı, 17 yaşlı Tatyana Nikolayevnanın (1897-1918) Hərbi fəlakətlərdən zərər çəkənlərə müvəqqəti kömək komitəsi (Tatyana komitəsi) yaradıldı [31, s.7].

14 sentyabr 1914-cü ildə Tatyana komitəsinin əsasnaməsi təsdiq olundu. Bu, Rusiyada "qaçqın işinin" təşkilinə dair ilk qanunverici akt idi. Formalaşmasından 1915-ci ilədək Tatyana komitəsi Rusiya imperiyasında qaçqınların müdafiəsi üzrə yeganə mərkəzi orqan idi [6, s.180-192].

Yerlərdə əhalinin ehtiyaclarını öyrənmək üçün komitə səlahiyyətli nümayəndələrini Baltikyanı quberniyalara, Qara dənizin sağ sahilinə və Qafqaza göndərdi. Səfərin nəticəsi olaraq, qaçqınların ehtiyaclarını ödəmək üçün təcili olaraq quberniyalarda komitənin şöbələrini açmaq qərara alındı. Şöbələrə qubernatorlar, ictimai və milli təşkilatların nümayəndələri başçılıq etməli idi. Qafqazda Komitə öz işini, Baş Qafqaz Komitəsi vasitəsilə həyata keçirirdi [2, v.1-1 arx.].

Müharibədən zərərçəkənlərə kömək Baş Qafqaz Komitəsi qaçqınlara köməyin düzgün və lazımlı şəkildə təşkil edilməsi üçün onun Müharibədən zərərçəkənlərə yardım üzrə Baş Qafqaz Komitəsi ilə əlaqəli mövcud olan vilayət, quberniya və qəza komitələri və ictimai təşkilatlar vasitəsilə təmin edilməsi lazım olduğunu bildirir və bunun əsasnaməsini müəyyən edirdi [2, v. 3-4].

Qafqazın Müharibədən zərərçəkənlərə kömək quberniya və vilayət komitələrinin sədrinə 12 iyun 1915-ci ildə göndərilən teleqramda bildirilirdi ki, Tatyana Nikolayevnanın komitəsi Qafqaz komitəsini məlumatlandırır ki, komitə üzvlərinin yerli nümayəndələrlə birgə iclasında, əmək qabiliyyətli qaçqınların sığınacaq və qidalarla təmin edilməsinə dair komitə sədrinin hesabatını nəzərdən keçirmişdir və qaçqınlara edilən köməyin əmək prinsipi əsasında yerli şəraitə uyğun olaraq həyata keçirilməsinin təminatçısı yerli təşkilatlar hesab olunur. Qafqaz Komitəsinin iyunun 4-də keçirilən iclasında qaçqınlara yardım göstərilməsində əmək prinsipini tətbiq etmək üçün Qafqaz regionunun bütün quberniya və vilayət komitələrinin dəvət edilməsi qərara alınmışdır [2, v. 7-7 arx.].

Müharibədən zərərçəkənlərə kömək edən Bakı quberniya komitəsinin nümayəndəsi adına göndərilən 1915-ci il 11 noyabr tarixli teleqramda bildirilirdi ki, həmin ilin 11 oktyabr tarixində Komitənin sədri Tatyana Nikolayevna Baş Qafqaz Komitəsi tərəfindən qaçqınlara verilən yardımla yanaşı, bundan sonra yuxarıda göstərilən sərəncamın hüdudlarında qaçqınlara hökumət tərəfindən göstərilən yardıma əlavə olaraq kömək göstəriləcəkdir [2,v. 9-9 arx.].





Tatyana komitəsinin əsas fəaliyyətlərindən biri Rusiya imperiyasında ilk olaraq qaçqınların qeydiyyatına başlaması oldu. Rusiya imperiyasında qaçqınların bir standart üzrə qeydiyyatına ilk olaraq 1915-ci ilin yayında başlanıldı.

Qaçqınların birinci geniş sayımı (Cənubi Qafqazsız və digər yerlər üzrə natamam məlumatlarla) 1915-ci il dekabrın 20-də 2,7 milyon qaçqının olduğunu göstərdi; dəqiqləşdirilmiş qeydiyyat (yenə də Cənubi Qafqaz istisna) 1916-cı ilin əvvəllərində 3 milyon, həmin ilin sonlarında isə 3,6 milyon nəfər qaçqın (buradan etibarən Cənubi Qafqaz da nəzərə alınır; orada sözügedən dövrdə 464 min qaçqın cəmləşmişdi ki, onlardan 145 min nəfər bilavasitə Türkiyə və İran ərazisində idi). 1916-cı il fevralın sonunda Peterburqda bütün qaçqınların siyahıya alınması keçirildi. Siyahıya almanın nəticəsinə əsasən, paytaxtda ümumi 100704 qaçqın qeydə alınmışdır. Onlardan (44443 kişi və 56261 qadın); 7 yaşa qədər uşaqlar - 11878, 7 yaşdan 14 yaşa qədər -13033, 14 yaşdan 17 yaşa qədər -7479 təşkil edirdi [27, s. 8,17,19].

Qaçqınların yerləşdiyi rayonlarda onların qeydiyyat kartoçkalarını işləyən Tatyana komitəsinin statistika şöbəsinin məlumatlarına əsasən, 1916-cı ilin sonunda Rusiyada himayədə olan 3,2 milyon qaçqının (Cənubi Qafqaz olmadan) milli tərkibi aşağıdakı qaydada idi: ruslar -58,8%, polyaklar -15,0%, latışlar - 10,0%, yəhudilər -6,4%, litvalılar -2,8%, digərləri (estonlar və başqaları) -7,0%. Lakin Cənubi Qafqaz qaçqınları nəzərə alınmaqla (onlar 3,6 milyonluq ümumi qaçqın sayının demək olar 13%-ni təşkil edirdilər) rusların göstərilən payı 50%-dək enirdi. Büronun məlumatlarına əsasən, 1917-ci ilin fevralın 1-i üçün bütün cəbhələrdə qaçqınların sayı 3200512 nəfər təşkil edirdi [26, s.48]. 1917-ci ilin yayında isə 3,8 milyondan artıq qaçqın müəyyən edilmişdi [26, s.47]. Qeydiyyata alınmayan insanları da nəzərə alaraq, A.N.Kurtsev Rusiyada Birinci dünya müharibəsindən 1917-ci ilin oktyabrına kimi 5 milyon qaçqının olduğunu göstərir. Y.A.Polyakov müharibə illərində 7,5 milyon qaçqının olduğunu qeyd etmişdir [28, s.100]. Demoqraf E.Z.Volkovun fikrincə, 1917-ci ilin ikinci yarısında Rusiya imperiyasında qaçqınların və məcburi köçkünlərin sayı təxminən 7421400 nəfər olmuşdur [13, s.72].

Komitə sədri A.Neydqartın Bakı şəhər rəisinə göndərdiyi teleqramda (1916-cı il 23 noyabr) bildirilir ki, "evakuasiya zamanı qaçqın ailələrini qovuşdurmaq ülyahəzrət komitəsi tərəfindən həyata keçirildi və hökumət, ictimai və milli təşkilatların köməyi ilə imperiyanın bütün ərazisində qaçqınların ümumi siyahıya

alınmasını başa çatdırdı və məlumatlar hazırda Komitənin Xüsusi şöbəsi tərəfindən hazırlanıb, yaxın gələcəkdə ümumi məlumatlarla birgə dərc olunacaqdır". Teleqramda eyni zamanda göstərilirdi ki, daxili quberniyalarda yerləşdirilmiş qaçqınlar daimi olaraq orada qala bilməzdilər. Şübhəsiz ki, onlar olduqca böyük bir miqyasda bir qəza, şəhər və quberniyadan digərinə hərəkət edərək həm öz qohumları və ya özhəmkəndliləri ilə əlaqə yaradacaq, həm də özlərinin və ailələrinin həyatlarını daha yaxşı təşkil etmək üçün qazanc və ya imkanlar axtaracaqlar; eyni şəkildə, işğal olunmuş ərazilər geri qaytarıldıqca, qaçqınların dədə-baba yurdlarına dönmək istəkləri də artacaq. Nəticədə qaçqınlar yerli əhalinin sayına təsir edəcək. Bunları nəzərə alaraq, ülyahəzrət komitəsi bu vilayətlərə yeni gələn qaçqınların dövri olaraq qeydiyyatının zəruri olduğunu etiraf etdi, ardıcıl olaraq hər ayın 1 və 15-də, imperiyanın hər bir şəhər və qəzasından qaçqınların sayına dair məlumat toplamaq və onları milliyyətinə və yaş qruplarına görə təsnif etmək tələb edildi. Hökumət üçün son dərəcə əhəmiyyətli olduğuna görə ictimai və milli təşkilatların qaçqınların hərəkəti və köçürülməsi ilə bağlı cari məlumatlarını davamlı olaraq qaçqınların axtarışı və qeydiyyatı üzrə Mərkəzi Ümumrusiya Bürosunun Xüsusi şöbəsinə çatdırmalı idi. Teleqramda göstərilirdi ki, məlumatların çatdırılması həmin ilin 1 dekabr tarixində başlamalı, Büroya müvafiq ayın 3-dən 18-dək olan müddətdən gec olmayaraq göndərilməlidir [4, v. 1-1 arx.].

Bəyanata uyğun olaraq qaçqınların axtarışı və qeydiyyatı üzrə Mərkəzi Ümumrusiya Bürosunun Xüsusi Şöbəsinə göndərilən Bakı polismeyster rayonunda yaşayan qaçqınların siyahısından aydın olur ki, 1 dekabr 1916-cı ilədək burada 794 nəfər qaçqın qeydə alınıb. Tatyana Nikolayevna komitəsinin Xüsusi şöbəsinə hər ayın 1 və 15-i üçün, hər şəhər və qəza üzrə göndərilən ayrıca siyahıda Bakı şəhər rəisliyi üzrə 1917-ci il noyabrın əvvəlində 961 nəfər qeyd olunub.1917-ci il dekabrı üçün isə bu rəqəm 972 nəfər göstərilib [4, v.2, 4]. 1917-ci il dekabrın sonunda Bakı şəhər rəisliyi üzrə qaçqınların sayı 977 nəfərə çatmışdır. [4, v.3]. Böyük knyaginya Tatyana Nikolayevna komitəsinin Xüsusi şöbəsinə göndərilən hər ayın 1 və 15-i üçün, hər şəhər və qəza üzrə ayrıca tərtib olunan cədvəldə 1917-ci il dekabrın 1-dən 31-dək olan dövrdə Bakı polismeystrinin ərazisində yaşayan qaçqınların sayı 2568 nəfər göstərilirdi [4, v.6].

1915-ci il sentyabrın əvvəlində Ümumrusiya zemstvo və şəhər ittifaqları da qaçqınlara kömək üçün Xüsusi şöbə formalaşdırır, orada Tatyana Nikolayevna Komitəsinin Ümumrusiya bürosu ilə demək olar eyni xüsusiyyətləri daşıyan Xüsusi məlumat bürosu yaradılır. Nazirlər Şurasının 1 iyul 1915-ci il tarixli qərarı ilə Şimal-Qərb və Cənub-Qərb cəbhələrində qaçqınların təşkili üzrə baş müvəkkil institutu yaradıldı, eyni vaxtda Daxili İşlər Nazirliyi nəzdində Qaçqınların təşkili üzrə şöbə təsis edildi və 5 avqust təlimatı ilə funksiyaları dəqiqləşdirildi





[15, 21]. Bir qədər sonra, Qafqazda minlərlə qaçqın meydana çıxanda, Qafqaz Cəbhəsinin qaçqınların təşkili üzrə baş müvəkkil təyin olundu. Baş müvəkkillik yanında qaçqınlara kömək etmək üçün xüsusi qurumlar olan Smolenskdə "Şimalyardım" (Северопомощь) və Berdiçevdə "Cənubqaçqın" (Югобеженец) yaradıldı. Qaçqınların təşkili üzrə Xüsusi müşavirənin 26 noyabr 1915-ci il iclasında qaçqınların qeydiyyatının Tatyana komitəsində cəmləşdirilməsi təklif edilir, buna səbəb kimi isə, komitənin bu işlə ilk və müntəzəm olaraq məşğul olması bildirilir. 6 fevral 1916-cı ildə qaçqınların qeydiyyatı məsələsi Tatyana komitəsinin xeyrinə həll olundu. Digər müəssisə və təşkilatlara yalnız Tatyana komitəsinin rəhbərliyi ilə qeydiyyat aparmaq hüququ verildi [34, s.14].

Tatyana komitəsi ilə eyni zamanda qaçqınlara köməyi Ümumrusiya şəhərlər ittifaqı və Ümumrusiya zemstvo ittifaqı həyata keçirirdi [14, s.292]. 1915-ci il iyulun əvvəlində Brestdə Daxili İşlər Nazirliyi, Ümumrusiya şəhərlər ittifaqı və Ümumrusiya zemstvo ittifaqı, eyni zamanda baş müvəkkillər - S.İ.Zubçaninov və A.P.Urusovun iştirakı ilə iclas keçirildi. İclasda qaçqınların hərəkət planı, qaçqınların qeydə alınacağı şəhərlərin təşkilatlanması, xəstələrin sağlamlardan ayrılması, yetim uşaqlara kömək edilməsi planı və s. hazırlanmalı idi [34, s.17].

Hər iki ittifaqın təsirinin güclənməsindən qorxan çar hökuməti qaçqınların hərəkəti üzrə nəzarətin təşkili təşəbbüsünü dövlətə həvalə etdi. Hökumət qaçqınların hərəkətini tənzimləmək üçün 1915-ci ilin avqustunda Daxili İşlər Nazirliyi nəzdində Qaçqınların təşkili üzrə Xüsusi müşavirə orqanını yaratdı.

30 avqust 1915-ci ildə qaçqınların ehtiyaclarının ödənilməsi haqqında Əsasnamə təsdiq edildi. Əsasnamənin 9-cu maddəsinə görə, qaçqınların ehtiyaclarını təmin etmək üçün bütün tədbirlərin birləşdirilməsi Daxili İşlər Nazirliyinin Xüsusi müşavirəsinə həvalə edilmişdir. Xüsusi müşavirənin tərkibinə Zemstvo və Şəhər ittifaqlarının nümayəndələri daxil idilər [33, s.89]. 1915-ci ilin sentyabrında hər iki ittifaqın işini bir istiqamətdə birləşdirən Qaçqınların təşkili üzrə Xüsusi şöbə yaradıldı [21, s.56].

Bütün maneələrə baxmayaraq, Ümumrusiya zemstvo və şəhər ittifaqlarının qaçqınların təşkili üzrə Birləşmiş şöbəsinin tibbi-sanitariya bölməsi tərəfindən böyük işlər görülmüşdür ki, bu da, ilk növbədə, ölkədə geniş yayılmış epidemiyaların qarşısını almağa yönəldilmişdir. Qafqaz cəbhəsinin komandanlığı Zemstvo ittifaqı Tibbi şurasının üzvü, məşhur malyariloq E.İ.Martsinovski 1914-cü ildə Qafqazda yayılmış xəstəliklərin hələ epidemiya halına gəlmədiyini, lakin əhəmiyyətli təhlükə halına gəldiyini qeyd etdi. Qaçqınların evakuasiyasının düzgün təşkil edilməməsi, evakuasiya məntəqələrində yoluxucu xəstələri gecikdirməmək üçün filtrlərin olmaması, arxa cəbhələrdə infeksiyanın yayılmasına səbəb olurdu [16, s.66].

Ümumrusiya zemstvo və şəhər ittifaqlarının qaçqınlara yardım işləri üzrə fəaliyyətinin nəticələrini yekunlaşdıraraq, belə nəticəyə gəlmək olar ki, qısa müddətdə onlar qaçqınlara yardım üzrə müxtəlif növ qurumlar yaratdılar, onlara əhəmiyyətli vəsait ayırdılar, cəbhələrdə təşkilatlarının geniş şəbəkəsini qurdular və s. Ümumrusiya zemstvo ittifaqının Baş Komitəsinin rəsmi məlumatlarına görə, 1915-ci ildə Qərb cəbhəsində onun 931 təşkilatı, Cənub-Qərbdə 1239, Şimalda 176, Qafqazda 214 təşkilat (dezinfeksiya və peyvənd dəstələri, tibbi-qida məntəqələri, anbarlar, sığınacaqlar və s.) qurulmuşdur [21, s.1-3].

"Qaçqın məsələsində" hökumət əvvəlcə ictimai təşkilatların işlərinə qarışmadı, onların fəaliyyəti daha səmərəli və hökumət strukturlarına nisbətən müvəffəqiyyətli keçdi. 1915-ci ilin yayında hökumət ümumrusiya dövlət qurumunun yaradılmasının vacib olduğunu başa düşdü. Nazirlər Şurasının 1915-ci il 24 iyul tarixli qərarı ilə Cəbhələrdə qaçqınların təşkili üzrə baş müvəkkil institutu yaradıldı [23, s.98-113].

1915-ci ildə rus ordusunun Qərb cəbhəsində geri çəkilməsi və kütləvi miqrasiyalar qaçqınların vəziyyətinin hüquqi-normativ cəhətdən təmin edilməsini tələb edirdi. 30 avqust 1915-ci ildə Dövlət Şurası və Dövlət Duması "Qaçqınların ehtiyaclarının təmin edilməsi haqqında" qanun layihəsini təsdiqlədi. Qanun qaçqın statusunu və onun hüquqlarını müəyyənləşdirirdi. Qanuna müvafiq olaraq qaçqın işlərinə rəhbərlik Daxili İşlər Nazirinə və onun nəzdində yaradılmış Qaçqınların təşkili üzrə xüsusi müşavirəyə tapşırılırdı. Qaçqınların təşkili üzrə xüsusi müşavirəyə Qafqaz təmsilçiləri də daxil olmuşdur [17, s.53].

Hökumət, xüsusən Cənubi Qafqazda qaçqınların ehtiyacları üçün dövlət vəsaitini xərcləmək niyyətində deyildi və buna çox həvəssiz gedirdi. İlk qaçqın dalğası Cənubi Qafqazı cənginə alanda və təcili ərzaq yardımı göstərmək tələb olunanda, Ərzaq işləri üzrə Müşavirə 3 milyon rubl pul buraxılması təqdimatı ilə Nazirlər Şurasına müraciət etmişdi. Amma Nazirlər Şurası Qafqaz canişininə sadəcə 1 milyon rubl köçürmüşdü.

Qafqaz canişini Vorontsov-Daşkovun 1915-ci il 24 iyul tarixində Nazirlər Şurasının sədrinə qaçqınlara yardım məqsədilə 500 min rubl buraxılmasına dair teleqramla xahişinə cavab olaraq xəzinədarlığın vəsaitindən yalnız 300 min rubl buraxılmışdı. Hökumətin qaçqınlara borc vermək məqsədilə (13 may 1916-cı il qanunu) Cənubi Qafqazda Batumi və Qars vilayətlərində iki yerli təsisat komitəsi və canişinin nümayəndələrinin iştirakı ilə bir mərkəzi-təsisat komitəsi təşkil etməsi güman olunurdu. Lakin doğma yurd-yuvalarında öz evlərini atıb qaçan, dilənçi halına düşən qaçqın kütləsi üçün ssuda yardımının hiss olunacaq nəticələri ola bilməzdi. Qurultayın təsərrüfatın bərpası məqsədilə hər bir qaçqın üçün nəzərdə tutduğu 150 rubl qaçqınlara yardım üzrə təşkilatların qarşısında necə ağır





bir vəzifə durduğunu göstərirdi. Hətta bu normanı qarşılamaq üçün 30 milyon rubl tələb olunurdu [12, s.128].

1915-ci il 30 avqust qanununadək Qafqazda qaçqınların işi ilə Qafqaz canişini nəzdində baş müvəkkil məşğul olur, bütün yazışmalar canişin dəftərxanası ilə həyata keçirilirdi. Qanunun qəbulundan sonra, 1915-ci ilin noyabrında öz ştatı ilə Qafqaz cəbhəsi qaçqınlarının təşkili üzrə baş müvəkkilin dəftərxanası təsis edildi. Onun fəaliyyətinin istiqamətləri Qafqaz canişini tərəfindən təsdiq olunan 1915-ci il 5 noyabr buyruğunda əks olunmuşdu. Qafqaz qubernatoru 1915-ci ilin 5 noyabrında ümumimperiya qaydalarının əsas prinsiplərinə əsaslanan "Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkillik" adlı xüsusi təşkilatın yaradılmasını təsdiqlədi. Hələ bundan əvvəl Qafqaz Cəbhəsində qaçqınların yerləşdirilməsi üçün Qafqaz qubernatorluğunun yanında baş müvəkkillik vəzifəsi isə general-mayor A.Tamamşevə tapşırılmışdı [11]. Bu təşkilatın nəzdində Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkili vəzifəsi Xosrov Paşa bəy Sultanova həvalə edilmişdi [2, v.11].

Qanunla Rusiyaya gələn bütün qaçqınların ehtiyaclarını ödəmək üçün dövlət xəzinəsindən 25 milyon rubl ayrılması qərara alındı, "Qaçqınları yerləşdirmək üzrə Xüsusi Komitə" yaradıldı. Komitəyə xeyriyyə təşkilatlarından bir nəfər təmsilçi seçildi. "Qaçqınları yerləşdirmək üzrə Xüsusi Komitə"yə Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin nümayəndəsinin daxil olması ilə, Qafqaz cəbhəsi döyüşlərində zərər görən müsəlmanlara yardım etmək və qaçqın düşənləri yerləşdirmək üçün dövlət xəzinəsindən yardım almaq hüququ əldə edilmişdi. Ümumi işlər bölməsi üzrə Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri adına Hesab bölməsindən qaçqınlara və Qafqaz cəbhəsində müharibədən zərər çəkmişlərə yardım etmək üçün M.Ş. Əsədullayevə 60 min rubl göndərilir [3, v. 2-3].

Qafqaz cəbhəsində müharibənin başlamasından qısa müddət sonra, ruslar Qars bölgəsində, "Qars Vilayət Komitəsi"ni yaratdılar [10, s.44]. Komitə bölgədəki problemləri həll etmək üçün qurulmuşdu və müharibədən zərər görən, qaçqın düşən bölgə əhalisinə yardım etməli idi. Eyni zamanda, 1915-ci il 30 avqust qanunu ilə yerli idarələrə müharibədən zərərgörən və qaçqın düşənlərə yardım etmək məsuliyyəti qoyulmuşdur. Ərdahan, Kağızman və Oltuda bir şöbəsi açılan bu komitənin başçılığını hərbi qubernatoru həyata keçirərkən, üzvləri də dövlət dairələrinin təmsilçiləri ilə bölgədə yaşayan hər etnik qrupdan bir təmsilçinin iştirakıyla həyata keçəcəkdi [9, s.195].

Milliyyət fərqi qoyulmadan müharibədən zərər görən insanlara yardım məqsədilə yaradılan bu komitə, işə başlayandan sonra Qars bölgəsi müsəlmanlarına hər hansı bir kömək göstərmədiyi kimi, bölgə əhalisinin böyük hissəsini təşkil edən türklərdən komitəyə təmsilçi seçilməmişdi [9, s.197].

1915-ci ildəki sayımlara görə, İrəvan vilayətində ümumi 100 min qaçqın vardı ki, bunların 5 mindən çoxu müsəlman olmaqla Sürməli bölgəsində yaşayırdılar. Rusiya hökuməti bölgədəki bütün qaçqınlar üçün 2 milyon 400 min manat vəsait ayırmışdır. Lakin bu pulun böyük bir qismi erməni qaçqınlar üçün xərclənməkdəydi [9, s.265].

Qaçqınlara yardım edilməsi üçün onların siyahıya alınması ən önəmli məsələlərdən idi. Bu məqsədlə Xeyriyyə Cəmiyyəti öz təmsilçilərini döyüş bölgələrinə və qaçqınların olduğu ərazilərə göndərərək onların sayını müəyyənləşdirmiş və siyahıları tərtib etmişlər. 1915-ci il 1 apreldən -20 sentyabradək Xeyriyyə Cəmiyyətinin nəzarəti altındakı ərazilərdə 74999 müsəlman qaçqın qeydə alınmışdı. Qars bölgəsində 33141 nəfər, İrəvan vilayətində 1100 nəfər, Tiflisdə 580 nəfər, Gəncədə 243 nəfər, Bakıda 58 nəfər qeydə alınmışdır. Batum bölgəsində də 25 minə qədər müsəlman qaçqın olduğu göstərilmişdir.

1915-ci ilin sonundan etibarən Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti "Qafqaz cəbhəsi qaçqınları yerləşdirmək üzrə baş təmsilçilik" vasitəsilə dövlət xəzinəsindən ayrılmış vəsaitdən pay almağa başlamışdır. Ancaq alınan bu yardımlar ehtiyacı ödəyəcək dərəcədə deyildi. Xeyriyyə Cəmiyyətinin müsəlman qaçqınlarına 1917-ci il yanvarın 1-dək xərclədiyi 2 milyon 100 min rubldan yalnız müsəlman qaçqınlar üçün 125 min rubl rəsmi olaraq dövlət yardımı almışdır [19]. Xərclənən bu pulun önəmli hissəsini Azərbaycan xalqı və bütün Qafqaz müsəlmanları toplamışdı.

27 noyabr 1915-ci il tarixli qanun dərc edildikdən sonra daxili işlər naziri A.Xvostov qaçqınların işi ilə məşğul olan bütün qurumları Daxili İşlər Nazirliyinə çəkdikləri xərclər barədə hesabat təqdim etmək məcbur edən "Qaçqınların ehtiyacları üçün xərclərin hesabatı qaydaları"nı təsdiq etdi. 1916-cı ilin martında Daxili İşlər Naziri əvvəlki Nizamnamənin əsas müddəalarına əsasən Qaçqınların təşkili üzrə rəhbər əsasnaməni təsdiq etdi [30]. Əsasnamə ilə baş müvəkkillərin fəaliyyət sahələri dəqiq müəyyənləşdirildi, eyni zamanda qaçqın işləri ilə məşğul olmaq hüququna malik olan ictimai təşkilatların fəaliyyəti əhəmiyyətli dərəcədə genişləndirildi. Qafqaz regionunda olan qaçqınların tələbatlarını ödəmək üçün 1916-cı il aprelin 20-də "Qafqaz cəbhəsində qaçqınların təşkili üzrə rəhbər əsasnamə" qəbul edildi [11].

Çar Rusiyasının qaçqınlara köməyin təşkili üzrə siyasətinin regional xarakteristikasından aydın olur ki, burada regionlar üzrə, xüsusilə Qafqaza dair müəyyən ayrıseçkiliyə yol verilirdi. Qafqaz regionu daxilində isə türk-müsəlman əhalidən olan qaçqınlara nisbətən, xristian qaçqınlara daha çox diqqət yetirilirdi.





## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), f.334, siyahı 1, iş 1
2. ARDTA, fond 335, siyahı 1, iş 1
3. ARDTA, fond 1, siyahı 1, iş 1497
4. ARDTA, fond 46, siyahı 2, iş 235
5. Dilməqani T.M. Güney Azərbaycan Birinci dünya müharibəsi illərində-Soyqırım. Bakı, 2010
6. Xanməmmədova N.Ə. "Tatyana" komitəsinin Şimali Azərbaycanda fəaliyyətinə dair (1914, sentyabr-1917, fevral)//Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Elmi Əsərləri". 73-cü cild. Bakı, 2018
7. Qasımov M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). Üç hissədə. I hissə (1914-cü il avqust-1917-ci il oktyabr). Bakı, 2000
8. Şükürov K.K. Birinci Dünya müharibəsinin Qafqaz cəbhəsi: Rusiyada və regionda hakimiyyət dəyişikliklərinin təsiri və dağılması//Tarixin qaranlıq səhifələri... Beynəlxalq elmi konfransın materialları. Bakı, 2004
9. Aslan B. 1. Dünya Savaşı Esnasında "Azerbaycan Türkleri"nin "Anadolu Türkleri"ne "Kardaş Kömeği (Yardımı)" ve Bakü Müslüman Cemiyet-i Hayriyesi". Ankara, 2000
10. Sultanov H.P. Bakü Müslüman Cemiyet-i Hayriyesi Harpzedelere Yardım Şubesinin Faaliyeti//Kardaş Kömeği, Bakü, 1917
11. Арутюнян А. А. Государственная помощь россии армянским беженцам в годы первой мировой войны//Вестник РАУ. № 1/2003
12. Басилая Ш.И. Закавказье в годы первой мировой войны. Сухуми: Алашара, 1968
13. Волков Е.З. Динамика народонаселения СССР за восемьдесять лет. М.-Л., 1930
14. Ерошкин Н.П. История государственных учреждений дореволюционной России. Изд. 3-е. М., 1983
15. Законы и распоряжения о беженцах. Изд. 2-е, доп. Вып.1. М., 1916
16. Известия Всероссийского союза городов помощи больным и раненым воинам. М., 1915. № 10
17. Ильин А.В. Об Особом совещании по устройству беженцев (1915г. - февраль 1917 г.)// Известия высших учебных заведений. Серия: Правоведение. Л., 1991. № 5
18. История первой мировой войны. 1914-1918. В 2-х томах. тт.1-2. М., 1975
19. "Каспий" от 10 января 1917 г.
20. Корсун Н.Г. Первая мировая война на Кавказском фронте. М., 1946
21. Краткий очерк деятельности Всероссийского Земского союза. М., 1916

22. Куликов А., Рунов В. В огне первой мировой//их же, Все Кавказские войны России. М., 2003
23. Курцев А.Н. Беженцы первой мировой войны в России (1914-1917)// Вопросы истории, 1999, №8
24. Масловский Е.В. Великая война на Кавказском фронте. 1914-1917 гг. М., 2015
25. Оськин М.В. Неизвестные трагедии первой мировой. Пленные. Дезертиры. Беженцы. М., 2011
26. Отчеть о деятельности особого отдела комитета Ей Императорского Высочества Великой Княжны Татианы Николаевны по регистрации беженцев в 1915 г. Пг., 1916
27. Перепись беженцев в Петрограде. Пг., 1916
28. Поляков Ю.А. Советская страна после окончания гражданской войны: территория и население. М., 1986
29. Полнер Т.Н. Жизненный путь князя Г.Е.Львова: Личность. Взгляды. Условия деятельности. М., 2001
30. Руководящее положение по устройству беженцев. Пг., 1916
31. Семенов-Тян-Шанский В.П. Татьянинский комитет: Великая княжна Татьяна и ее помощь беженцам //Возрождение. Париж, 1956. №55
32. Цовян Д.Г. Деятельность государственных органов и общественных организаций по оказанию помощи беженцам в России в годы Первой мировой войны. 1914-1917 гг.: дис. канд. ист. наук. М., 2005
33. Шишов А.В. Персидский фронт (1909-1918). Незаслуженно забытые победы. М., 2010
34. Щепкин М.М. Беженцы и организация помощи им в связи с работами Особого совещания. М., 1916


## REGIONAL CHARACTERISTIC OF THE POLICY OF THE RUSSIAN EMPIRE IN RELATION TO REFUGEES: 1914-1917
### SUMMARY

Based on the existing literature and archival materials, the article studies the activities of the Russian Empire on resolving the issue of refugees during the First World War in a regional context. As a result of the study, it was revealed that in the period from August 1914 to August 1915. During the first year of the war, public organizations had advantages in organizing refugee assistance. First aid to refugees at the state level began in 1914, but nonetheless, Muslim refugees of the Caucasus Front began to receive assistance from the end of 1915. In this situation, the Baku Muslim Charity Society provided enormous assistance to Muslim refugees.





## РЕГИОНАЛЬНАЯ ХАРАКТЕРИСТИКА ПОЛИТИКИ РОССИЙСКОЙ ИМПЕРИИ В ОТНОШЕНИИ БЕЖЕНЦЕВ: 1914-1917 гг.
### РЕЗЮМЕ

В статье на основе существующей литературы и архивных материалов изучены мероприятия Российской империи по решению вопроса беженцев в период первой мировой войны в региональном разрезе. В результате исследования было выявлено, что в период с августа 1914 г. до августа 1915 г., т.е. в течении первого года войны в организации помощи беженцам преимущества имели общественные организации. Первая помощь беженцам в государственном уровне начался в 1914 г., но тем не менее, мусульманские беженцы Кавказского фронта начали получать помощь с конца 1915 года. В сложившейся ситуации огромную помощь беженцам-мусульманам оказали Бакинское Мусульманское Благотворительное Общество.